МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ им. У.ГАДЖИБЕЙЛИ

На правах рукописи

МУСТАФАЕВ НАТИГ КЯМАЛ ОГЛЫ

# СИСТЕМА ИСПОЛЬЗОВАНИЯ ФОРТЕПИАННЫХ ОБРАБОТОК АЗЕРБАЙДЖАНСКИХ НАРОДНЫХ ТАНЦЕВАЛЬНЫХ МЕЛОДИЙ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ МУЗЫКЕ

(на основе учебных материалов ДМШ и школ искусств)

**5801.01 - Теория и методика обучения и воспитания
(Методика преподавания музыки)**

## АВТОРЕФЕРАТ

диссертации на соискание учёной степени
доктора философии по педагогике

**Баку – 2015**

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
ÜZEYİR HACIBƏYLİ ADINA BAKI MUSİQİ AKADEMİYASI

Əlyazması hüququnda

NATİQ KAMAL OĞLU MUSTAFAYEV

# AZƏRBAYCAN XALQ RƏQSİ MELODİYALARININ FORTEPİANO ÜÇÜN İŞLƏMƏLƏRİNDƏN MUSİQİ FƏNLƏRİNİN TƏDRİSİNDƏ İSTİFADƏ SİSTEMİ

(Uşaq musiqi və incəsənət məktəblərinin tədris materialları əsasında)

5801.01 – Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası
(musiqi tədrisi metodikası)

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

## AVTOREFERATI

**BAKI - 2015**

Dissertasiya işi Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Metodika və xüsusi pedaqoji hazırlıq" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Oqtay Məmmədağa oğlu Rəcəbov,** pedaqogika üzrə elmlər doktoru, professor, Rusiya pedaqoji və sosioloji Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Respublikasının Əməkdar müəllimi

**Rəsmi opponentlər:** **Minarə Rəhimağa qızı Dadaşova** pedaqogika üzrə elmlər doktoru, professor

**İradə Ağəli qızı Məmmədova** pedaqogika üzrə fəlsəfə doktoru

**Aparıcı təşkilat:** Azərbaycan Müəllimlər İnstitutu "İbtidai və məktəbəqədər təhsilin metodikası" kafedrası

Müdafiə «29 sentyabr» 2015-ci ildə saat 14⁰⁰ Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ-1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küçəsi, 98

Dissertasiya ilə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat «28 avqust» 2015-ci ildə göndərilmişdir.

Dissertasiya şurasının elmi katibi:
sənətşünaslıq üzrə fəlsəfə doktoru **H.V.Məmmədova**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Dünyanın qabaqcıl, inkişaf etmiş ölkələrindən olan Azərbaycan özünəməxsus zəngin milli mədəni irsə malikdir. Bu zəngin irsə aid olan xalq rəqsləri, xoreoqrafiya sənəti Azərbaycan incəsənətinin mühüm tərkib hissələrindən biridir. Kökü qədim dövrlərə (eramızdan əvvəlki minilliklərə) bağlı olan Azərbaycan xalq rəqsləri, xoreoqrafiya mədəniyyəti müasir dövrdə də öz milli xüsusiyyətlərini qoruyub saxlayaraq inkişaf edir, klassik və müasir rəqslərə öz təsirini göstərərək onları zənginləşdirir.

Respublikamızın xoreoqrafiya ustaları zəngin milli rəqslərimizi yeni nəslə ötürməkdə əvəzsiz rol oynayırlar. Eyni zamanda, etnomusiqi sahəsində çalışan alimlərimiz xalq rəqslərini nəzəri cəhətdən tədqiq edir, öz tapıntılarını musiqişünaslığın müxtəlif sahələrində nəzərə çatdırırlar. Ölkəmizin müstəqillik qazanması Azərbaycan xalqının milli incəsənətinə, o cümlədən rəqslərə və xoreoqrafiya sənətinə yeni həyat vermiş, zəngin xalq yaradıcılığının daha da inkişaf etməsi və bütün dünyada tanınması üçün geniş, əlverişli şərait yaratmışdır.

Çox qədim zamanlardan el sənətkarları tərəfindən yaradılmış xalq rəqsləri bu gün də öz əhəmiyyətini itirməmişdir. Forma, melodiya əlvanlığına görə diqqəti cəlb edən həmin sənət nümunələrindən el şənliklərində, milli bayramlarda istifadə olunur.

Xalq rəqslərinin inkişafı eyni zamanda Azərbaycanda musiqili teatrın inkişafına da öz təsirini göstərmişdir. Belə ki, dahi bəstəkar, pedaqoq, ictimai xadim, peşəkar Azərbaycan musiqisinin banisi Üzeyir Hacıbəylidən başlayaraq, Azərbaycan bəstəkarları səhnə əsərlərində xalq rəqslərindən, onların emosional təsirli melodiyalarından böyük ustalıqla istifadə etmişlər.

Azərbaycan xalq rəqslərindən – rəqs melodiyalarından görkəmli bəstəkarlarımız Qara Qarayevin, Əfrasiyab Bədəlbəylinin, Fikrət Əmirovun, Soltan Hacıbəyovun, Aqşin Əlizadənin dünya xalqlarının zövqünü oxşayan balet əsərlərində istifadə olunmuşdur. Ə.Bədəlbəylinin "Qız qalası", Q.Qarayevin "Yeddi gözəl", S.Hacıbəyovun "Gülşən", F.Əmirovun "Min bir gecə", A.Əlizadənin "Babək" baletlərində xalq

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası
İNV № 690/2
KİTABXANASI

rəqsləri ilə klassik xoreoqrafiyanın üzvi şəkildə birləşərək vəhdət təşkil etməsinin şahidi oluruq.

Azərbaycan musiqi mədəniyyətini zənginləşdirən həmin balet əsərlərində ayrı-ayrı rəqs melodiyalarının simfonik orkestr tərəfindən ifası onların bədii cəhətdən ahəngdar səslənməsinə səbəb olur. Beləliklə, milli rəqslərimiz təkcə milli olaraq qalmır, həm də ümumbəşəri bir əsərə çevrilir.

Xalq rəqslərindən musiqinin digər janrlarında da istifadə olunur. Xüsusilə bir sıra simfonik və kamera-instrumental əsərlərdə bunun maraqlı nümunələrinə rast gəlirik. Həmçinin, xalq rəqslərinin vokal və xor musiqisinə sirayət etməsini də müşahidə etmək olar. Bu baxımdan bəstəkar Oqtay Rəcəbovun xor kapellası üçün 10 Azərbaycan xalq rəqsinin işləməsi də mühüm əhəmiyyətə malikdir.

Azərbaycan bəstəkarlarından Tofiq Quliyev, Midhət Əhmədov, Soltan Hacıbəyov, Rauf Hacıyev və başqaları bir sıra məşhur xalq rəqslərinin melodiyalarını fortepiano üçün işləmiş, bunların əsasında bir sıra dəyərli məcmuələr çap olunmuşdur. Lakin təəssüf doğuracaq bir haldır ki, milli musiqimizin zənginliyini nümayiş etdirən bütün bu rəngarəng musiqi materialından uşaq musiqi və incəsənət məktəblərində, bilavasitə fortepiano ixtisası üzrə məşğələlərdə demək olar ki, istifadə olunmur, diqqətdən kənarda qalır. Halbuki indiki dövrdə bir-birindən dəyərli xalq rəqs melodiyalarının tədris prosesindəki əhəmiyyətini üzə çıxarmaq, onların şagirdlərin estetik zövqünün və musiqi qabiliyyətlərinin inkişafındakı, formalaşmasındakı rolunu, mövqeyini öyrənmək musiqi pedaqogikasının zəruri məsələlərindən sayılır.

Müasir dövrdə uşaq musiqi və incəsənət məktəblərinin qarşısında duran bir sıra aktual problemlər sırasında şagirdlərin musiqi qabiliyyətlərinin, musiqi-estetik mədəniyyətinin səviyyəsinin yüksəldilməsində folklor musiqi nümunələrindən, xüsusilə də Azərbaycan xalq rəqsi melodiyalarından istifadə edilməsi məsələsini qeyd etmək lazımdır. Əlverişli tədris vasitələri kimi xarakterizə olunan həmin nümunələr musiqiyə estetik münasibətin, yüksək estetik zövqün tərbiyə olunması, habelə böyüyən nəslin mənəvi simasının formalaşması ilə sıx bağlıdır. Çünki musiqi sənətində gözəlliyin şagirdlər tərəfindən rəqs folklor nümunələri vasitəsilə dərk edilməsi, mənimsənilməsi mənəvi



cəhətdən zəngin, fəal yaradıcı şəxsiyyətin ahəngdar inkişafına qüvvətli təsir göstərir.

Ölkəmizdə uşaqların və məktəblilərin musiqi tərbiyəsinin milli musiqi mədəniyyəti üçün səciyyəvi olan xüsusiyyətlər əsasında qurulması həlli vacib olan vəzifələrdən sayılır. Belə ki, xalq musiqisi sırf folklor elementlərindən başqa, özündə xalqın bədii təfəkkürünün xüsusiyyətləri anlayışını ehtiva edir. Buna görə də əgər millətin psixoloji xarakteri onun dünyanı dərk etmə xüsusiyyəti ətraf mühitə emosional reaksiyası kimi başa düşülürsə, musiqi bir növ onun əhəmiyyətli xüsusiyyətlərinin ifadəçisi kimi çıxış edir.

Gənc nəslin musiqi tərbiyəsi məsələlərinin milli musiqiyə, xalq psixologiyasının emosional sisteminin xüsusiyyətlərinə əsaslanmasının qədim tarixi kökləri vardır. Xalq yaradıcılığının dəyərli nümunələri, o cümlədən Azərbaycan xalq rəqsi melodiyaları burada xüsusi yer tutur.

Azərbaycan folklor musiqisinə həmişə xüsusi diqqət yetirən Ulu öndərimiz Heydər Əliyev hələ 1 oktyabr 1979-cu ildə Azərbaycan bəstəkarlarının VII qurultayının iştirakçıları ilə görüşərkən demişdir: "Bəstəkarın sənətkarlığı, yüksək professionalizmi toplanmış sərvətlərdən istifadə etməklə, Azərbaycan xalq musiqisi, milli melodiyalar, Azərbaycan folkloru əsasında bütün janrlarda sanballı əsərlər yaratmaqdan ibarət olmalıdır. Qara Qarayev "Yeddi gözəl" baletində bu işi sənətkarlıqla görmüşdür. F.Əmirov "Kürdovşarı" simfoniyasında, Niyazi "Rast" simfoniyasında bu işi məharətlə görmüşlər. Həmin əsərlər bizim qədim muğamlarımıza əsaslansa da, görün necə professionallıqla yazılmışdır, xalq melodiyalarından necə yaradıcılıqla istifadə olunmuşdur, folklor və müasirlik necə bacarıqla, necə üzvi şəkildə birləşdirilmişdir".[1]

Məlumdur ki, milli mədəniyyətin ən yüksək nailiyyətlərindən və mütərəqqi ənənələrindən istifadə ümumi tərbiyə sistemində mühüm rol oynayır, vətənpərvərlik, doğma vətənə sevgi hisslərinin formalaşmasına, estetik zövqün inkişafına qüvvətli təsir göstərir.

Azərbaycan musiqi folklorunun müxtəlif janrlı nümunələri, o cümlədən rəngarəng rəqs melodiyaları xalqın yaradıcılıq ənənələrinin əsas ifadəçiləridir və onlar müstəsna mənəvi-estetik təsir gücünə ma-

[1] Əliyev H.Ə. Bəstəkarın yüksək vəzifəsi və amalı. Bakı, Azərnəşr, 1979, s. 17

likdirlər. Milli musiqiyə məhəbbət hissinin, milli musiqi vasitələrinin mahiyyət dolğunluğunun düzgün dərk edilməsi üçün müntəzəm, sistemli tədbirlərin həyata keçirilməsi problem xarakterli vasitələrdən sayılır. Melodiyanın xarakterini, ritm, tembr harmoniyasını hiss etmək və fərqləndirmək bacarığı musiqi, incəsənət məktəbi şagirdlərində milli, həmçinin xarici musiqiyə marağın yaranmasına kömək edir. Başqa sözlə, xalq yaradıcılığını dərk etmə, onun dərin kökləri ilə tanışlıq uşaq, məktəbli şəxsiyyətini zənginləşdirir, həm milli, həm də xarici bəstəkar yaradıcılığının mənimsənilməsində mühüm mərhələ rolunu oynayır. Təsadüfi deyildir ki, dahi bəstəkarımız, böyük musiqi alimimiz Üzeyir Hacıbəyli problemin həmin cəhətindən bəhs edərək yazırdı: "....Dünya mədəniyyətinin ən böyük abidələri – xalq mahnıları və rəqsləri sayəsində meydana gəlmişdir".[1]

Musiqi qavrayışı eşitmə appersepsiyasına əsaslanır, onun səviyyəsi dinləyicinin intonasiya-eşitmə təcrübəsinin nə dərəcədə zəngin, rəngarəng və məzmunlu olmasından asılıdır. Onun musiqi mədəniyyətinin ümumi səviyyəsi də həmin cəhətlər və başlıca keyfiyyətlərlə əlaqədardır.

Əgər musiqi qavrayışının formalaşması birtipli intonasiyalı musiqi materialı əsasında aparılırsa, bu zaman şagirdlərdə daha müxtəlif intonasiyalara əsaslanan musiqinin qavranılmasına mane olan eşitmə inersiyası, "eşitmə maneəsi" inkişaf edir. Buna görə şagirdlərdə intonasiya-eşitmə bacarığını genişləndirmək, onu məqsədyönlü şəkildə formalaşdırmaq və inkişaf etdirmək lazımdır. Məhz belə bir mövqeyə əsaslanaraq çalışmaq lazımdır ki, şagirdlər müxtəlif üslub və janr istiqamətlərində musiqini mükəmməl şəkildə dərk edə bilsinlər. Həmin bacarıq və qabiliyyətləri ifaçılıq prosesində də nəzərə çatdırsınlar.

Problemlə bağlı belə bir cəhəti də diqqətə çatdırmaq lazımdır ki, bu gün uşaq musiqi və incəsənət məktəblərində fortepiano ixtisası üzrə təhsil alan şagirdlər, o cümlədən, orta və ali musiqi məktəblərini bu ixtisas üzrə bitirənlər klassik Avropa, rus və Azərbaycan bəstəkarlarının

[1] Hacıbəyov Ü.Ə. Əsərləri, II cild, Bakı: Azərbaycan Elmlər Akademiyasının nəşri. 1965, s. 284



mürəkkəb əsərlərini ifa etsələr də, Azərbaycan xalq rəqs melodiyalarının müəyyən bir nümunəsini fortepianoda çala bilmirlər.

Üzeyir Hacıbəyli Avropa musiqi mədəniyyətinin böyük tərbiyəvi əhəmiyyətini qeyd etməklə yanaşı, belə hesab edirdi ki, ibtidai təhsilin ilkin mərhələlərində musiqi tədrisinin və onun inkişafının əsasını hər şeydən əvvəl şagirdlərə daha yaxın, sadə, asan başa düşülən xalq musiqisi təşkil etməlidir. O yazırdı: "...Avropa musiqisindən əlavə bir də Şərq musiqisi vardır və biz azərbaycanlılar özümüz Şərq əhlindən olduğumuza görə musiqi təhsili işində Şərq musiqisinə qarşı laqeyd qalsaq öz mədəni vəzifəmizi kamalınca ifa etməmiş olarıq" (14, 249).

Ü.Hacıbəylinin dahiyanə uzaqgörənliklə nəzərə çatdırdığı həmin fikirlərindən aydın olur ki, tədris xalq musiqi incəsənəti, xalq mahnıları və rəqsləri sahəsində biliklərin dərinləşdirilməsi əsasında aparılmalıdır. Təlim prosesində şagirdlər öz xalqının musiqi yaradıcılığı, Azərbaycan xalq musiqisinin səciyyəvi xüsusiyyətlərini (improvizasiyalılıq, lad əsası, metroritmin mürəkkəbliyi) mənimsədikdən sonra digər xalqların yaradıcılığını da mükəmməl qavraya və layiqincə qiymətləndirə bilərlər.

Unutmaq olmaz ki, musiqi folkloru şagirdlərin ümumi musiqi tərbiyəsinin mühüm vasitəsidir. Buna görə də musiqi üzrə uşaq tədris müəssisələrində şagirdlər Azərbaycan musiqi folklor nümunələri ilə yaxından tanış olmalı, onları mükəmməl ifa etməyi bacarmalıdırlar.

Araşdırmalar belə bir fikir söyləməyə əsas verir ki, ölkəmizdə musiqi tərbiyəsi ilə məşğul olan pedaqoq-metodist alimlərdən Y.B.Əliyev, O.M.Rəcəbov, S.D.Quliyev, N.S.Məlikməmmədov və başqaları apardıqları tədqiqat işlərində, yazdıqları elmi-metodik əsərlərində musiqi pedaqogikasının qarşıya qoyduğu həmin vəzifələrin yerinə yetirilməsinə çalışmışlar. Onlar belə bir ideya inamını əsas götürmüşlər ki, musiqi tərbiyəsinin başlıca məqsədi şagirdlərə əsərin fikir, obraz və mənasını nəzərə çatdıran musiqi dilinin, istifadə olunan ifadə vasitələrinin səciyyəvi xüsusiyyətlərini anlamağı öyrətməkdən ibarətdir. Əgər nəzərə alsaq ki, həmin alim pedaqoqların tədqiqatları ancaq ümumtəhsil məktəblərinin bazası, tədris proqramları əsasında aparılmışdır, o zaman "Azərbaycan xalq rəsqsi melodiyalarının fortepiano üçün işləmələrindən musiqi fənlərinin tədrisi prosesində istifadə sistemi" (uşaq musiqi

və incəsənət məktəblərinin tədris materialları əsasında) mövzusunda tədqiqatımızın aktuallığı daha aydın şəkildə nəzərə çarpar.

**Tədqiqatın obyekti** uşaq musiqi və incəsənət məktəblərində fortepiano ixtisası üzrə təhsil alan şagirdlərin musiqi qabiliyyətlərinin inkişafı prosesidir.

**Tədqiqatın predmetini** uşaq musiqi və incəsənət məktəblərində fortepiano ixtisası üzrə təhsil alan şagirdlərin musiqi qabiliyyətlərinin inkişafı prosesində Azərbaycan xalq rəqsi melodiyalarının fortepiano üçün işləmələrindən istifadə sistemi təşkil edir.

**Tədqiqatın məqsədi** uşaq musiqi və incəsənət məktəbləri şagirdlərinin musiqi qabiliyyətlərinin inkişafında müxtəlif xarakterli, müxtəlif məzmunlu Azərbaycan xalq rəqsi melodiyalarının fortepiano üçün işləmələrinin bütün siniflərdə istifadə imkanları, forma və yollarını, təsir dinamikasını müəyyənləşdirməkdən, fortepiano müəllimlərinə düzgün istiqamət verə biləcək elmi-metodiki tövsiyə və təkliflər hazırlamaqdan ibarətdir.

**Tədqiqatın fərziyyəsi:** uşaq musiqi və incəsənət məktəblərinin fortepiano ixtisası, solfecio və musiqi ədəbiyyatı fənləri dərslərində müxtəlif xarakterli Azərbaycan xalq rəqsi melodiyalarının fortepiano üçün işləmələrindən şagirdlərin yaş xüsusiyyətləri nəzərə alınmaqla istifadə olunarsa, tədris proqramlarında siniflər üzrə düzgün yerləşdirilərsə, şagirdlərin musiqi mədəniyyətinin formalaşması üzrə proqram tələbləri yerinə yetirilər, böyüməkdə olan gənc nəslin estetik dünyagörüşləri, musiqi ifaçılıq qabiliyyətləri milli folklor nümunələri əsasında intensiv şəkildə inkişaf edər.

**Tədqiqatın vəzifələri.** Tədqiqatın məqsəd və fərziyyəsinə uyğun olaraq qarşıya aşağıdakı vəzifələrin həlli qoyulmuşdur:

1. Azərbaycan xalq rəqsi melodiyalarının fortepiano üçün işləmələri vasitəsilə uşaq musiqi və incəsənət məktəbləri şagirdlərinin musiqi qabiliyyətlərinin inkişafını, o cümlədən, bununla əlaqədar nəzəri və praktiki məsələlərin elmi pedaqoji ədəbiyyatda, proqram və dərsliklərdə qoyuluşunu öyrənib təhlil etmək.

2. Uşaq musiqi və incəsənət məktəblərində xalq rəqsi melodiyalarının fortepiano üçün işləmələri vasitəsilə I-VII sinif şagirdlərinin musiqi qabiliyyətlərinin inkişafı ilə əlaqədar məktəb təcrübəsinin vəziyyətini öyrənib ümumiləşdirmək.

3. Azərbaycan xalq rəqsi melodiyalarının fortepiano üçün işləmələrindən fortepiano, solfecio, musiqi ədəbiyyatı fənlərinin tədrisində istifadənin səmərəli yollarını, forma və vasitələrini müəyyənləşdirmək.

4. Azərbaycan xalq rəqsi melodiyalarının fortepiano üçün işləmələrinin şagirdlərin musiqi mədəniyyətinin inkişafına təsirini eksperiment vasitəsilə müəyyənləşdirmək.

5. Azərbaycan xalq rəqsi melodiyalarının fortepiano üçün işləmələrindən istifadə etməklə şagirdlərin musiqi qabiliyyətlərinin inkişafı üzrə işin elmi-metodiki əsaslarla həyata keçirilməsinə təsir göstərən vəsait və tövsiyələr hazırlamaq, səmərəli təkliflər irəli sürmək.

**Tədqiqatın metodoloji əsasını** idrak nəzəriyyəsi, tədqiq etdiyimiz elmi problemlərlə əlaqədar milli və bəşəri dəyərlərin qarşılıqlı vəhdəti, Azərbaycan musiqi pedaqogikası və metodikası üzrə tədqiqatlar, klassik musiqişünas alimlərin problemlə bağlı ideyaları təşkil edir.

**Tədqiqatın metodları.** Problemlə əlaqədar vəzifələri yerinə yetirmək üçün aşağıdakı tədqiqat metodlarından istifadə edilmişdir:

1. Nəzəri təhlil. Problemlə bağlı sənətşünaslıq, pedaqoji-metodik aspektdə yazılan əsərlər, proqram və dərsliklər diqqətlə nəzərdən keçirilmiş, təhlil edilmişdir.

2. Müsahibə. Azərbaycan xalq rəqsi melodiyalarının fortepiano üçün işləmələrindən istifadə etməklə uşaq musiqi və incəsənət məktəbləri şagirdlərinin musiqi qabiliyyətlərinin inkişaf etdirilməsi ilə əlaqədar başlıca cəhətləri, elmi nəticələri təhlil etmək məqsədilə musiqi müəllimləri ilə müsahibələr aparılmış və eyni zamanda şagirdlərin fikirləri öyrənilmişdir.

3. Müşahidə. Problemlə əlaqədar uşaq musiqi və incəsənət məktəblərinin fortepiano ixtisası, solfecio və musiqi ədəbiyyatı dərslərində müəllim və şagirdlərin fəaliyyəti müşahidə olunmuş və tədqiqat işinin əsas istiqamətləri müəyyənləşdirilmişdir.

4. Pedaqoji eksperiment. Tədqiqat prosesində qarşıya çıxan mübahisəli məsələlərin dəqiqliyini yoxlamaq, eyni zamanda, fərziyyənin doğruluğunu sübut etmək üçün müəyyənedici, öyrədici, yoxlayıcı

(korrelyasiya) olmaqla üç mərhələ üzrə pedaqoji eksperiment aparılmışdır. Eksperimentlər, sınaq təcrübələri Bakı şəhəri S.Ələsgərov adına 1 №-li uşaq incəsənət, Ə.Bakıxanov adına 6 №-li uşaq musiqi, H.Sarabski adına 7№-li uşaq musiqi, R.Hacıyev adına 15 №-li 11 illik musiqi, G.G.Şaroyev adına 35 №-li 11 illik musiqi, Xırdalan şəhəri uşaq musiqi, Şəki şəhəri 4 №-li uşaq musiqi, Lənkəran şəhəri C.Cabbarlı adına 1 №-li uşaq musiqi, Gəncə şəhər 2 №-li uşaq musiqi və Zaqatala şəhər uşaq incəsənət məktəblərində aparılmışdır.

5. Riyazi statistika. Pedaqoji eksperiment və sınaq təcrübələri aparılarkən riyazi statistika üsulundan istifadə edilərək müəyyən cədvəllər, qrafik sxemlər nəzərə çatdırılmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Respublikamızda ilk dəfə olaraq uşaq musiqi və incəsənət məktəblərinin fortepiano ixtisası üzrə tədris prosesində Azərbaycan xalq rəqsi melodiyalarının fortepiano üçün işləmələrindən istifadənin səmərəli üsulları, yolları müəyyənləşdirilərək şagirdlərin musiqi qabiliyyətlərinin inkişafına təsiri öyrənilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Musiqi pedaqogikasında Azərbaycan xalq rəqsi melodiyalarının fortepiano üçün işləmələrindən istifadə imkanlarının səviyyəsi müəyyənləşdirilərkən səmərəli forma və yollar aşkara çıxarılmış, professional musiqi tədrisi metodikasının müvafiq bölməsindəki boşluğu aradan qaldırmağa zəmin yaradılmışdır.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqatın nəticələrindən ali və orta ixtisas musiqi məktəblərinin kadr hazırlığında, habelə uşaq musiqi və incəsənət məktəblərinin fortepiano və digər musiqi fənlərinin tədrisi prosesində istifadə etmək, bu sahədə nəzərə çarpacaq uğurların, fəaliyyət istiqamətlərinin səmərəliliyinə zəmin yaratmaq olar.

**Müdafiəyə aşağıdakı müddəalar təqdim olunur:**

1. Azərbaycan xalq rəqsi melodiyalarının fortepiano üçün işləmələrindən fortepiano ixtisası üzrə təhsil alan şagirdlərin musiqi qabiliyyətlərinin inkişafı prosesində istifadə edilməsi onların musiqi mədəniyyətinin inkişafına, formalaşmasına müsbət təsir göstərir.

2. Xalq rəqsi melodiyalarının fortepiano üçün işləmələrindən təkcə ixtisas fortepiano dərslərində deyil, həm də solfecio və musiqi ədəbiyyatı fənlərinin tədrisində istifadə şagirdlərin bu və digər xalq musiqi janrlarına maraqlarını artırır, fəaliyyət dairəsini genişləndirir.



3. Rəqs melodiyalarının fortepiano üçün işləmələrindən məşğələlərdə müəyyən bir sistemlə istifadə olunması şagirdlərin melodik, harmonik eşitmə qabiliyyətlərinin və ritm duyma hisslərinin də inkişafına zəmin yaradır.

4. Azərbaycan xalq rəqsi melodiyalarının fortepiano üçün işləmələrindən tədris prosesində istifadə həm də şagirdlərdə bir sıra mənəvi keyfiyyətlərin yaranmasına müsbət təsir göstərir.

**İşin aprobasiyası.** Dissertasiya Bakı Musiqi Akademiyasında yerinə yetirilmiş və müzakirə olunmuşdur. Dissertasiyanın əsas məzmunu müəllifin yerli və xarici nəşrlərdə çap olunmuş məqalələrində, uşaq musiqi və incəsənət məktəblərində təlim-tərbiyə metodlarının təkmilləşdirilməsinə, musiqi təhsilinin aktual problemlərinə həsr olunmuş respublika və beynəlxalq elmi-praktik konfranslardakı məruzə və tezislərində öz əksini tapmışdır. Həmçinin mövzuyla bağlı uşaq musiqi və incəsənət məktəblərində elmi-metodiki seminarlar keçirilmiş, akademik konsertlər təşkil olunmuşdur.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, 2 fəsil, 6 yarımfəsil, nəticə və təkliflərdən, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılır. Tədqiqatın obyekti, predmeti, məqsədi, fərziyyəsi, vəzifələri, metodoloji əsası, metodları, elmi yeniliyi, nəzəri əhəmiyyəti, müdafiəyə təqdim olunan müddəalar və nəticələrin tətbiqi haqqında məlumat verilir.

Dissertasiyanın birinci fəsli **"Azərbaycan xalq rəqslərindən təlim prosesində istifadə pedaqoji problem kimi"** adlanır. Dörd yarımfəsildən ibarətdir. **1.1. "Azərbaycan xalq rəqslərinin inkişaf tarixinə nəzər"** adlanan yarımfəsildə Azərbaycan xalq rəqslərinin inkişaf tarixinə xüsusi diqqət yetirilir. Belə bir cəhət nəzərə çatdırılır ki, rəqs mədəniyyəti Azərbaycan xalqının həyatında həmişə böyük yer tutub. Ulu babalarımızın həyat tərzi, əməyi, mübarizəsi, sevgisi, nifrəti haqqında yaratdıqları gözəl abidələr, sənətkarlıq nümunələri, qoşduqları mahnılar haqqında müəyyən məlumatlar olsa da, eləcə də xalqımızın

rəqs sənətinin necə yarandığı və inkişaf etdiyi haqqında tədqiqat işləri aparılsa da kifayətləndirici deyildir. Hələ min illərlə bundan əvvəl Qobustan qayaları üzərində qədim insanlar tərəfindən kütləvi rəqslərin təsviri onu sübut edir ki, incəsənətimizin bu növü Azərbaycan ərazisində çox qədim zamanlardan mövcud olmuşdur. Qədim "Bilqamıs" və "Dədə Qorqud" dastanlarında da bunun təsdiqini görürük.

Problemin əsas mahiyyəti haqqında daha dolğun təsəvvür yaradılması üçün qeyd olunur ki, Azərbaycan xalq rəqsləri digər qədim musiqi janrları kimi, dövrümüzə qədər müxtəlif vasitələrlə, yollarla gəlib çatmışdır. Mahiyyət dolğunluğuna, forma rəngarəngliyinə görə onları aşağıdakı şəkildə nəzərə çatdırmaq olar:

1. Ağızdan-ağıza, toy məclislərindən - toy məclislərinə, bir musiqiçi nəslindən digər nəsillərə keçərək şifahi şəkildə yaşadılma yolu ilə;

2. Arxivlərə düşmüş dastanlarda, musiqili oyunlarda öz əksini tapmaqla;

3. Müxtəlif əsrlərdə və dövrlərdə yaşayıb-yaratmış musiqiçilərin, musiqişünas alimlərin "Bilqamıs" və "Dədə Qorqud"dan üzü bu yana aşıqların və xalq sənətkarlarının yaradıcılıqları haqqında əldə etdikləri məlumatların dövrü mətbuatda çap olunması ilə.

Azərbaycan xalq yaradıcılığının müxtəlif janrlı folklor nümunələrində olduğu kimi, rəqslərdə də xalqın istək və arzuları, azadlıq uğrunda mübarizəsi, adət və ənənələri, dünyagörüşü, yenilməzliyi həqiqi sənət dili ilə əks etdirilir.

Baharın gəlişi ilə əlaqədar keçirilən tamaşa və mərasimlər qədim xalq oyunları və rəqsləri ilə bağlıdır. Belə ki, "Halay", "Cəngi", "Cəhribəyim", "Sonacan", "Ceyran bala", "Yallı", "Tənzərə", "Gopu", "Leyli-xani", "Hoynari", "Güleynarı", "Oyun yallı", "Köçəri", "Qazqazı", "Dönə-yallı", "Nənə-gün", "Haxışda", "Çınq-çınq", "Qaladan-qalaya", "Qaleyi" kimi xalq rəqsləri bu gün də toylarda, xalq şənliklərində, bayram mərasimlərində kollektiv şəkildə musiqi və xorun müşayiəti ilə ifa olunur. Çox güman ki, Azərbaycan xalqının qəhrəmanlıq və idman oyunları kimi geniş yayılan "Çovkan", "Qəhrəmanı", "Pəhlivani", "Sürpapaq", "Yaylıq" oyun mərasimləri də yuxarıda adlarını çəkdiyimiz kütləvi oyunlar əsasında yaradılmışdır. Problemin belə bir cəhətini də yaddan çıxarmaq olmaz ki, həmin oyunların kütləviliyi,



xalq adət-ənənəsi ilə bağlılığı onun daha qədimliyini sübut edir. Musiqi mühitinin zənginləşməsinə zəmin yaradır. Müxtəlif nəsillərin musiqi-estetik tərbiyəsində daha geniş yayılan didaktik vasitələr kimi mühüm rol oynayır.

**1.2. "Azərbaycan xalq rəqsi melodiyalarının fortepiano üçün işləmələrinin səciyyəvi (metroritm, lad, tembr, harmoniya və quruluş) xüsusiyyətləri"** adlanır. Qeyd olunur ki, uşaq musiqi, incəsənət məktəblərində Azərbaycan xalq rəqsi melodiyalarının fortepiano üçün işləmələrindən istifadənin səmərəliliyini təmin edən əsas şərtlərdən biri onların səciyyəvi xüsusiyyətlərinin izahı prosesində metro-ritmik cəhətlərə xüsusi diqqət yetirilməsidir. Dahi bəstəkarımız Ü.Hacıbəyli özünün "Azərbaycan xalq musiqisinin əsasları" əsərində milli musiqimizin ritmik quruluşu haqqında yazır: "Azərbaycan xalq musiqisi öz metro-ritmik quruluşuna görə iki yerə bölünür: birincisi, aydın metrik vəznlə ifadə olunan musiqi; ikincisi, müəyyən vəzni olmayan musiqidir. Aydın vəznlə olan musiqiyə xalq mahnıları, müxtəlif xalq rəqs havaları, habelə "təsniflər" (vokal musiqi) və "rənglər" (instrumental musiqi) daxildir"[1].

Daha sonra bəstəkar bu formalı vəznlərin: $^{6}/_{4}$, $^{4}/_{4}$, $^{3}/_{4}$, $^{2}/_{4}$, $^{4}/_{8}$, $^{6}/_{8}$, $^{3}/_{8}$ ölçülərdən ibarət olduğunu qeyd edir və göstərir ki, Azərbaycan musiqisi üçün $^{4}/_{4}$ vəzni, $^{3}/_{4}$-dən daha səciyyəvidir.

Azərbaycan xalq rəqslərinin vəznləri ilə əlaqədar bir sıra vacib məsələləri diqqət mərkəzinə gətirərək Ü.Hacıbəyli yazır: "Bir qayda olaraq, $^{6}/_{8}$ vəzndə, hərəsi $^{3}/_{8}$ vəzndən ibarət iki hissə olur. Lakin Azərbaycan rəqs musiqisi və habelə rəqs səciyyəsində olan bəzi mahnıların metro-ritmik xüsusiyyəti başqa cür qruplaşma tələb edir. Bu qruplaşma iki hissəli vəzn ilə üçhissəli vəznin növbələşməsindən ibarət olur".

**1.3."Çap olunmuş not nəşrlərində proqram və dərsliklərdə problemin qoyuluşu"** adlanan üçüncü yarımfəsildə tədris-metodiki baxımdan mühüm əhəmiyyət kəsb edən məsələlər üzərində dayanılır. Belə bir cəhət xüsusi olaraq nəzərə çatdırılır ki, çoxəsrlik tarixə və dərin köklərə malik Azərbaycan xalq musiqi yaradıcılığı zəngin və rəngarəngdir. Onun böyük bir qolunu, mühüm bir sahəsini oyun havaları –

---

[1] Hacıbəyov Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları. Bakı, "Yazıçı", 1985, s. 94

xalq rəqsləri təşkil edir. Respublikamız müstəqillik əldə etdikdən sonra Azərbaycan xalq musiqi irsinin qorunması və inkişafı yeni, uğurlu mərhələyə qədəm qoymuşdur. Azərbaycan xalq musiqi yaradıcılığının əsas xüsusiyyətləri olan ideya zənginliyi, demokratik məna, yeni məzmun, fəlsəfi baxış və digər keyfiyyətlər xalq rəqslərində də özünü göstərir.

Azərbaycanda musiqi folklorşünaslığının öyrənilməsi işinin əsasını qoymuş Üzeyir Hacıbəyli və Müslüm Maqomayev musiqi elminin əsas vəzifəsi kimi xalqın yaratdığı müxtəlif janrlı və formalı musiqi nümunələrinin toplanıb nota salınması və tədqiq olunmasına böyük əhəmiyyət vermiş, yüksək qiymətləndirmişlər. Bu sahədə ilk addımı da məhz onlar ataraq, topladıqları xalq mahnılarını 1927-ci ildə "Azərbaycan türk el nəğmələri" adı ilə nəşr etdirmişlər. Bu dəyərli mənbə 1985-ci ildə yenidən nəşr olunaraq musiqinin nəzəri və təcrübi məsələləri ilə məşğul olanların ixtiyarına verilmişdir.

1931-ci ildə Azərbaycan Dövlət Konservatoriyası nəzdində Elmi Tədqiqat Musiqi Kabinəsinin yaradılması və ona dahi müğənni, professor Bülbülün rəhbərlik etməsi folklorşünaslığın elmi əsaslar üzrə öyrənilməsi sahəsində bir canlanma yaratdı. Belə ki, bu kabinetin xətti ilə Azərbaycan bəstəkarlarından Asəf Zeynallı, Qara Qarayev, Fikrət Əmirov, Cövdət Hacıyev, Səid Rüstəmov, Tofiq Quliyev, Midhət Əhmədov, Zakir Bağırov, musiqişünas Məmmədsaleh İsmayılov və başqaları respublikamızın bir sıra rayonlarında musiqi folkloru nümunələrinin toplanılıb tədqiq olunması işində xüsusi fəallıq göstərdilər. Həmin ekspedisiyaların nəticəsində onlar xalqımızın yaratdığı müxtəlif janrlı musiqi folkloru nümunələrini toplayaraq nota köçürdülər.

Elmi-Tədqiqat Musiqi Kabinetinin işi həm də səsyazma studiyasında aparılmış və bir sıra tanınmış xalq sənətkarlarının ifasından xalq mahnı və rəqsləri, aşıq havaları, muğamlar və rənglər nota salınmışdır. Həmin materialların bir hissəsi əsasında müxtəlif illərdə bir sıra dəyərli məcmuələr çap olunmuşdur. S.Rüstəmovun not yazıları əsasında tərtib olunmuş xanəndə Cabbar Qaryağdıoğlunun ifasından "50 Azərbaycan xalq mahnısı" (1938), "Azərbaycan xalq rəqsləri" (1937; yeni nəşri 1950), "Azərbaycan aşıq havaları" (1938), T.Quliyevin və Z.Bağırovun tarzən Mirzə Mansurovun ifasından notlaşdırdıqları "Rast", "Zabul", "Dügah" muğamları dəyərli nümunələrdir.



XX əsrin 50-60-cı illərində S.Rüstəmov, T.Quliyev, Z.Bağırov və M.İsmayılovun "Azərbaycan xalq rəqsləri" məcmuəsi (1951), S.Rüstəmovun 2 dəftərdən ibarət "Azərbaycan xalq rəngləri" (1954-1956), S.Rüstəmovun, F.Əmirovun, T.Quliyevin not yazıları əsasında Bülbülün redaktəsi ilə "Azərbaycan xalq mahnıları" (1956-1958; yeni nəşri 1981), 60-70-ci illərdə görkəmli tarzən-pedaqoq Ə.Bakıxanovun "Azərbaycan xalq rəngləri", "Azərbaycan ritmik muğamları", "Muğam, mahnı, rəng" məcmuələri, B.Hüseynlinin "Azərbaycan xalq rəqs melodiyaları" (I və II dəftər), Ə.İsazadənin və N.Məmmədovun "Xalq mahnıları və rəqs melodiyaları" (I dəftər – 1973, II dəftər - 1984) və başqa bu kimi məcmuələr böyük əhəmiyyət kəsb edir. 1980-ci ildə E.Mansurov və A.Kərimlinin tarzən Bəhram Mansurovun ifasından nota yazdıqları "Azərbaycan diringi və rəngləri" məcmuəsi də not ədəbiyyatını zənginləşdirən nəşrlərdəndir.

Haqqında bəhs etdiyimiz yarımfəsildə müxtəlif illərdə nəşr olunmuş musiqi məcmuələrində xalq rəqs melodiyalarına verilən yer diqqət mərkəzinə gətirilir. Müvafiq təhlil və ümumiləşdirmələr aparılır.

**1.4. "Musiqi təlimi sistemində Azərbaycan xalq rəqsi melodiyalarının fortepiano üçün işləmələrinin praktiki mənimsənilməsi yolları"** adlanan dördüncü yarımfəsildə tədrisin pedaqoji-metodik təminatına zəmin yaradan iş tərzlərindən bəhs olunur.

Belə bir cəhət diqqət mərkəzinə gətirilir ki, tarixin müxtəlif dövrlərində hər bir xalqın folklor nümunələrinin qorunub saxlanılması, lazımi şəkildə dəyərləndirilməsi, nəsildən-nəslə ötürülməsi mühüm əhəmiyyət kəsb edən vəzifələrdən biri kimi diqqət mərkəzində olmuşdur. Bu vəzifənin real həllinə nail olmaq üçün metodik sistemin, səmərəli yolların, iş formalarının müəyyənləşdirilməsi mühüm əhəmiyyətə malikdir.

Məna dəyəri, forma, gözəlliyi, rəngarəngliyi, şuxluğu ilə fərqlənən Azərbaycan xalq rəqslərinin mükəmməl qavranılması çox münasibdir və xüsusi psixoloji hazırlıq tələb etmir. Lakin ifaçı, xüsusilə də gənc ifaçı bir sıra çətinliklərlə rastlaşır. Ümumilikdə bütün rəqs melodiyalarına xas olan ritm naxışının dəyişkənliyi ifaçının həssaslıq və iti reaksiyası, motivlərin qəribə melizmlərlə zənginləşən variantlığı isə intonasiya eşitmə qabiliyyətinin inkişafı xüsusi bir səy nəticəsində əldə

oluna bilər. Odur ki, bu istiqamətdə müəllim professional səviyyəsi, səriştəliliyi, pedaqoji metodik ustalığı ilə diqqəti cəlb etməlidir.

Məlumdur ki, hər hansı bir ifaçı öz təfsirini (interpretasiyasını) not işarələrini real səs prosesinə, canlı intonasiyaya çevirərkən bir sıra yayınmalara yol verir. Buna baxmayaraq, əsərin mənimsənilməsi prosesində intonasiya eşitmə bacarığı ilə intonasiyanın identifikasiyasına düzgün mövqe tutulmalıdır.

Humanitar elmlərdə "invariant" anlayışı istifadə olunur və bu anlayışın mənası obyektin dəyişməsi zamanı onun əsas, vacib xüsusiyyətlərinin qorunub saxlanılmasıdır. O qədər vacib olmayan cizgilər dəyişilsə belə, obyekt özünə identik qalır. Məsələn (bizim kontekstdə), laylayın tempi ən vacib xüsusiyyətlərdən biridir və onu tez tempdə çaldıqda əsərin bədii mənası pozulmuş olur. Beləliklə, əsərin invariantı, yəni onun ictimai şüurda formalaşan etalon obrazının fərdi qavranılma səviyyəsində "işlənilməsi" müəllimin əsas meyarlarından biri olmalıdır.

Bütün musiqi əsərlərinin ifaçı tərəfindən öyrənilməsi kimi, rəqs melodiyalarının fortepiano üçün işləmələrinin də praktiki mənimsənilməsi çoxmərhələli bir prosesdir. Bu işin mərhələlərə bölünməyinin şərti olması və onların bir-biri ilə sıx əlaqəsi haqqında müəllimin aydın təsəvvürü olmalıdır. Bu məsələ ilə əlaqədar diqqəti cəlb edən və səmərəliliyi artıran mərhələləri aşağıdakı şəkildə nəzərə çatdırmaq daha məqsədəmüvafiqdir.

1) İfaçılıq konsepsiyasının yaradılması, iş prosesində onun daima korreksiya edilməsi.
2) Şagirdin əsərlə müəllim tərəfindən tanış edilməsi (müəllimin ifası, canlı ifaya və ya onun lent yazısına qulaq asmaq). Daxili eşitmə qabiliyyətinin inkişafı üçün müvafiq təmrinlərin icrası.
3) Not mətni üzərində iş, mətnin hərtərəfli təhlili bacarığının aşılanması, müəllimlə birgə "davamlı üzdən oxu" və s.
4) Əsərin praktiki mənimsənilməsi: ağır və orta tempdə hissələrin dəfələrlə təkrar-təkrar ifası, bütövlükdə ifaya hazırlıq təmrinləri.



5) Forma hissinin inkişaf etdirilməsi. Musiqi nitqinin sintaksisinin qanunauyğunluqlarının öyrənilməsi. Əsərin kompozisiya məntiqinin anlaşılması, müvafiq müsahibələrin aparılması.
6) Əsərin səhnədə estetik-emosional cəhətdən mükəmməl ifasına zəmin yaradan hazırlıq işlərinin yekunlaşdırılması. Səhnə ifasına hazırlıq.

İşin başlanğıcı musiqinin intuitiv qavranılması, emosional yaşanması ilə bağlıdır və bu da stereotiplərdən uzaqlaşmağa, fərdi bir konsepsiya yaratmağa şərait yaradır. Müəllimin ifası və ya şagird üçün ifanı asanlaşdırmaq məqsədi ilə hər hansı bir partiyanın (melodiya və ya müşayiətin) hissələrə ayrılaraq üzdən oxuması rəqs melodiyası haqqında ilkin təsəvvür yaradır.

Problemin belə bir cəhətini də yaddan çıxarmaq olmaz ki, notun oxunuşu özü özlüyündə yaradıcılıqdır və bu məsələyə ciddi, yaradıcı yanaşma ilk tədris illərindən tərbiyə olunmalıdır. Peterburq konservatoriyasının professoru V.Razumovskayanın sinfində şagirdlə birlikdə müəllif mətninin ətraflı təhlili zamanı "obrazların inkişafında məntiq axtarışı, hər bir musiqi epizodunda təsvir olunan emosiyaların, əhval-ruhiyyənin açılması" baş verirdi, başqa sözlə özünəməxsus "emosiya partiturası", "obrazlar partiturası" yaradılırdı.

Not mətninin dərin təhlili musiqi dilinin məntiqini aydınlaşdırır, şagirdin musiqi təfəkkürünü inkişaf etdirir, rəqslər üzrə praktiki məşğələlərə keçdikdə şagirdin işi xeyli asanlaşır. Hər hansı bir rəqsin ifaçılıq və metodiki təhlilinə başlayarkən ilk növbədə onun məzmunu, obrazının xarakteri haqqında düşünmək lazım gəlir. Həmin obrazın yaranması üçün istifadə olunan vasitələr (ritmik və temp xüsusiyyətləri, melodiyanın quruluşu, tonal planı, harmoniya və lad xüsusiyyətləri, forması, inkişaf yolları, kulminasiya zonaları) təyin olunur. Hazırlıq mərhələsinin zəruri hissəsi ifa vasitələrinin təhlilidir, bu da melodiyanın intonasiya ilə səslənməsi, ibarələrə bölünmə, dinamik plan, aqoqik xüsusiyyətlər (bədii tələblərə uyğun olaraq metrdən cüzi yayınmalar), artikulyasiya (tələffüz), pedaldan istifadə qaydaları haqqında məlumatlar verilərək şagirddə rəy yaratmaqdır.



Üzeyir Hacıbəyli adına
Bakı Musiqi Akademiyasının
İNV. № 690/2
KİTABXANASI

İfa prosesində ən məsuliyyətli anlardan biri applikaturanın seçimidir. Məntiqə uyğun və əlverişli barmaq seçimi əsərin məzmununun bədii və texniki cəhətdən düzgün təcəssüm edilməsinə maksimal şərait yaradır, ritmə, dinamikaya, artikulyasiyaya təsir edir, ibarənin ifadəsini qabarıq göstərir, səsə müəyyən çalarlar gətirir. Applikatura hər əl üçün ayrılıqda düşünülüb yazılmalıdır. Burada bir neçə seçim ola bilər. Düzgün seçimə əllərin ölçüsü, texniki hazırlıq təsir edir. Bu prosesdə müəllimin rolu fəal olmalıdır, lakin o, bu və ya digər qərarı şagirdin iştirakı ilə qəbul etməlidir.

İlkin dərslərdən şagirdə musiqi təfəkkürünün ünsürləri aşılanmalıdır. Gənc ifaçı ilə musiqi ibarəsinin strukturu müzakirə edilməlidir. Yekdil musiqi fikri ifadə edilərkən onun ətraf səslərini qruplaşdıran öz semantik zirvəsi olmalıdır. Melodiyanın motivlərə, ibarələrə, cümlələrə, periodlara bölünməsi haqqında məlumat verilməli, senzura və pauzaların ifadə imkanlarından danışılmalıdır.

Rəqs melodiyası üzərində işləyərkən gənc ifaçı onun elementlərini dəfələrlə təkrar edir. Bu zaman səslənmənin xarakteri, tələffüz fəndləri (ştrixlər), ifaçı hərəkətlərinin axtarışı baş verir. Bir müddət şagirdin diqqəti bütün ifa vasitələrinin yadda saxlanılmasına yönəldilir. Təkrarlar zamanı hər bir xırda, mikrointonasiyalardan iri fraqmentlərə qədər ibarənin axarı, intonasiyanın relyefi aydınlaşır. Bir qayda olaraq şagirdin əsas prinsipə - "təkmilləşdirilmiş təkrar" prinsipinə riayət etməsini təmin etmək lazımdır ki, düşünülməmiş təkrarlar baş verməsin, onlara yer qalmasın. Mətnin dəqiqliyinə nail olmayınca həddindən artıq emosional ifadan da imtina etmək məsləhətdir. Tədricən, bəndlər dəqiqləşdikcə "obrazlar partiturasına" dəyişiklər əlavə edilir. Nəhayət məqam çatır ki, hər bir bəndi düşünərək çalınan bir ifa daha sərbəst, zəhmətsiz alınan ifaya çevrilir və bütün elementlər ümumi strukturda layiq olduğu yeri tutur.

Məlumdur ki, əsərin məzmununa uyğun gələn, ifadəli, gözəl səs axtarışları pianoçuların daima diqqət mərkəzində olub. N.Perelman bu haqda belə yazırdı: "Fantaziyası olan musiqiçi üçün səs dadı, ətri, həcmi, gözəlliyi və ya eybəcərliyi, gücü, uzunluğu və hər hansı bir digər keyfiyyətləri təcəssüm etməyə qadir olan məhfumdur. ...Musiqiçi ...səs haqqında...elə bil nədənsə görünən haqqında danışır, - işıqlı,



sönük, günəşli, solğun, ...əşya haqqında – dəyirmi, yastı, dərin, dayaz, ağır, yüngül, uzun, qısa. Səsə hətta mənəvi kateqoriyalar da aid edilir: məsələn, nəcib". (72, 9-10) Fortepiano tonunun palitrası, rəngarəng tembrləri, onun dinamikası ifaçının fantaziyası, alətə yanaşması təcrübəsindən asılıdır.

Əsəri bütöv, ayrılmaz bir tərkib kimi qavramaq üçün melodik hərəkətin istiqamətli olduğunu hiss etmək, uzunmüddətli ibarə dalğaları yaratmağı bacarmaq lazımdır. Davamlı axan musiqi zamanı ayrı-ayrı elementlər ümumi ritmik formaya birləşir, ritmin enerjisi isə gah gərginləşir, gah da sönən, sakitləşən nəbz ilə əvəz olunur. Formanın bütövlüyünə nail olmaqda ritmə nəzarət etməyin böyük əhəmiyyəti var. Bu mənada rəqs musiqisinin ifası ritm hissiyatının inkişafına müsbət təsir edir, bir nəfəsə ifa etmək səyini inkişaf etdirir. Pianoçu hərəkətlərinin eyniliyini təşkil etdikdə ritmik dəqiqliyə əlverişli yol tapılır.

Ayrı-ayrı dərs məşğələlərində vacib ifadə elementi olan dinamikanın da planı nəzərdən qaçırılmamalıdır. Bu, əsərin kulminasiya anlarını müəyyənləşdirməyə, emosional gərginliyin artmasına və ya azalmasına təsir göstərən effektləri öyrənməyə kömək edir. Şagird dinamik planı elə qurmalıdır ki, yerli kulminasiyaların gərginliyi ümumi emosional və semantik kontekstə müvafiq olsun. Bununla mərkəzi kulminasiya zirvəsinə hamar yüksəliş təşkil olunur. Nəticədə, əsərin forması davamlı dinamik dalğa ilə əhatə olunur və rəqsin daxili birliyinə gətirib çıxarır.

Dinamik işarələr rəngkarlıqda işıq və kölgə effektləri (*ff* –işıq, *mf* – yarımkölgə, *p* – kölgə), və ya məkanın xüsusiyyətləri (*ff* – ön plan, *f* – ikinci plan, *mf* – orta uzaq, *p* – çox uzaq, *pp* – sanki üfüqdə) ilə müqayisədə aydınlaşır. "Fortepiano məktəbi"nin müəllifi İ.Pleyel isə dinamik işarələri nitqlə müqayisə edirdi: forte – söhbət zamanı adi insan səsi, piano – səsin həcmini xeyli azaltmaq, lakin cüzi belə gərginlikdən uzaq olmaq.

Dinamika üzərində işin səmərəliliyini təmin etmək üçün bir neçə istiqamət əsas götürülür. Bunları aşağıdakı ardıcıllıqla nəzərə çatdırmağı məqsədəmüvafiq sayırıq:

1) melodiyanın ifadəli tələffüzü;

2) müşayiətdə və ya melodiyada istifadə olunan ikili notlar, oktavalar və akkordların dinamik ton fərqləri (qradasiya);
3) çoxplanlı səs nisbəti (proporsiya), fakturanın qatları arasında səs balansı;
4) dinamik proseslər üzərində iş.

Növbəti vasitə olan artikulyasiyanın da ifadə imkanları cox böyükdür və o təkcə adi ştrixlərlə - *legato, non legato, portamente, staccato* ilə məhdudlaşmır. Fortepiano tuşesinin ayrı formaları da var – *tenuto, marcato* və başqaları. Hətta eyni artikulyasiya işarələri müxtəlif hallarda fərqli ifa oluna bilər. Məsələn, şagirdlər *staccato*- nu əsasən olduqca iti ifa edirlər, halbuki o, uzun və ya qısa, kəskin və ya yumşaq, daha yüngül və əksinə, daha ağır ola bilər. *Non legato* qabarıq, vurğulanan və ya yüngül, yumşaq ola bilər. Hər bir halda seçim bədii obrazdan asılıdır və ona müvafiq ifa tərzi tələb olunur.

Musiqinin dinamika və artikulyasiyasından başqa onunla sıx əlaqədə olan aqoqik nüanslar da mövcuddur. Aqoqik yayınmaların yeri və ölçüsü adətən ifaçının fərdi xüsusiyyətlərindən çox asılıdır. Lakin burada da özünəməxsus qanunauyğunluqlar aşağıdakı şəkildə müəyyən bir sistemlə nəzərə çarpır:

1) Güclü zərbənin elə bir xüsusiyyəti var ki, o xanə xaricini və kiçik ölçülü notları özünə cəlb edir və beləliklə cüzi sürətartırma baş verir;
2) İntonasiyanın gərgin anlarında (xüsusilə melodiyada yuxarı iri intervallara addım atılanda) bir qədər genişlənmə olur;
3) Ağır templərdə melodiyanın başlanğıc notunun "ədalı" gecikməsi;
4) Bir səsdə gizli polifoniya olarkən ikisəsliliyi aşkara çıxaran cüzi dayanacaqlar;
5) Kulminasiya nöqtələri qarşısında kiçik ləngimələr onların dəyərini xeyli artırır;
6) Kiçik ləngimə hərdən *subito piano* qarşısında da olur, çünki psixoloji hazırlıq bir az vaxt tələb edir;



7) Kantilena xarakterli melodiyaların yuxarı tessiturada oxunaqlı səslənməsi insan səsi ilə analogiyada bir az səy və gərginlik tələb edir, odur ki temp genişlənir.

Fortepiano səsini zənginləşdirən ifadə vasitələrindən biri də pedaldan istifadə üsullarıdır. Pedal melodiyanın koloritinə və harmonik fakturaya yeni çalarlar gətirir. Onun istifadə qaydaları bütövlükdə ifa prosesində olduğu kimi, bədii prinsiplərin obyektiv əsaslarına dayaqlanır. Bununla belə, hər bir ifaçı burada da özünün fərdiliyi, zövqü, temperamentini nümayiş etdirə bilir. Pedal xüsusi yanaşma tələb edir, bu da eşitmə qabiliyyətindən, istedaddan çox asılıdır. Rəqs havalarında pedal adətən güclü zərbəyə düşən bas ilə birlikdə götürülür.

Beləliklə, şagirdlərlə rəqs melodiyaları üzərində işləyərkən, fortepiano ifaçılığına xas olan əhatəli məsələlərin heç biri muəllimin nəzərindən qaçmamalıdır.

Dissertasiyanın ikinci fəsli "**Azərbaycan xalq rəqsi melodiyalarının fortepiano üçün işləmələrindən musiqi təlimi prosesində istifadə edilməsi üzrə eksperimentin təşkili və aparılması mərhələləri**" adlanır və iki yarımfəsildən ibarətdir. **2.1. ""Təcrübəvi-müəyyənedici" (2009-2010) və formalaşdırıcı (2011-2012) eksperimentlərin təşkili, aparılması"** adlanan birinci yarımfəsildə eksperimentlər və onların aparılma mərhələləri diqqət mərkəzinə gətirilir.

Eksperimentin uğurla keçirilməsi üçün qarşıya konkret məqsəd qoyulmuşdur: gənc pianoçuların musiqi mədəniyyətinin formalaşması, onların estetik dünyagörüşləri, musiqi qabiliyyətlərinin milli folklor nümunələri vasitəsi ilə daha intensiv şəkildə inkişaf etməsinə nail olmaq. Uşaq musiqi və incəsənət məktəblərinin fortepiano sinfi və digər fənlər üçün işlənilmiş yeni proqramların praktiki təsdiq olunması və bütövlükdə tədqiqatın fərziyyəsinin, onun elmi və praktiki cəhətdən etibarlılığının yoxlanılması qarşıya qoyulan əsas məqsədlə sıx bağlı idi.

Əvvəlcə eksperimental işin proqramı müəyyən edilmişdir. Onun mahiyyəti işin mərhələ-mərhələ qurulmasından ibarət idi: problemin müəyyən olunması, təcrübədən keçməsi və rəqs melodiyalarının fortepianoda ifa edilməsi və digər musiqi fənlərində onların dərindən öyrənilməsi tələblərini respublikanın bütün musiqi və incəsənət məktəbləri-

nə yayılması, həmçinin bütövlükdə keçiriləcək eksperimentin yekunlaşdırıcı təhlili və nəticələrin ümumiləşdirilməsi.

Eksperimentin əsas vəzifələri aşağıdakılardan ibarət idi:

- ilk mərhələdə musiqi və incəsənət məktəblərinin fortepiano sinfində milli rəqslərimizdən istifadə vəziyyətinin öyrənilməsi (müəyyənedici tədqiqat);
- fortepiano sinfi üzrə uşaq musiqi və incəsənət məktəbləri üçün işlənilmiş yeni proqramın əsasında bilavasitə təcrübənin keçirilməsi (formalaşdırıcı tədqiqat);
- təklif olunan fortepiano və digər fənlər üzrə proqramların yeni iş şəraitində effektivliyinin yoxlanılması (eksperimental işin korrelyasiya mərhələsi).

Eksperimentin həyata keçməsi üçün aşağıdakı vacib tədbirlər görülmüşdür:

- müvafiq plan, proqram tərtibi, ayrı-ayrı məşğələlərinin effektliliyinin öyrənilməsi, üzə çıxarılması üzrə yoxlama və dinləmələrin təşkili;
- iş prosesi zamanı şagirdlərin eşitmə qabiliyyətində, ifaçılığında və ya ümumi inkişafında müşahidə olunan dəyişikliklərin fərdi gündəliklərinə qeyd edilməsi;
- eksperimentin bütün mərhələlərində qeydiyyatın aparılması;
- tədqiqatla bağlı cədvəllər və qrafiklərin müəyyənləşdirilməsi, tədqiqat prosesində bunların nəzərə alınması.

Təcrübəvi-eksperimental işin planı əvvəldən irəli sürülmüş vəzifələrin əsasında qurulmuşdur. Bu proses üç dövrü əhatə edir: 2009-2010-cu illərdə Bakı şəhər uşaq musiqi məktəblərinin bazasında müəyyənedici, 2011-2012-ci illərdə Bakı şəhər uşaq musiqi məktəblərinin bazasında formalaşdırıcı eksperiment qoyulmuşdur. Eksperiment Bakı şəhəri S.Ələsgərov adına 1 №-li uşaq incəsənət, Ə.Bakıxanov adına 6 №-li uşaq musiqi, H.Sarabski adına 7 №li uşaq musiqi, R.Hacıyev adına 15 nömrəli 11 illik musiqi, G.Şaroyev adına 35 №li 11 illik musiqi və Xırdalan şəhəri uşaq musiqi məktəblərində aparılmışdır. 2012-2014-cü illərdə korrelyasiya mərhələsi Şəki şəhəri 4 №-li uşaq musiqi, Lənkəran şəhəri 1 №-li uşaq musiqi məktəbləri və respublikanın bir çox rayonlarının uşaq musiqi və incəsənət məktəblərində keçirilmişdir.



2009-cu ildə Bakı şəhər S.Ələsgərov adına 1 nömrəli uşaq incəsənət və Ə.Bakıxanov adına 6 nömrəli uşaq musiqi məktəblərinin bazasında keçirilən təcrübəvi-eksperimental iş hazırlıq xarakteri daşıyırdı. Pedaqoji axtarışların bu mərhələsində aparılan tədqiqatlar zamanı məktəblərdə təlim-tərbiyə prosesinə nəzər yetirilirdi, ilkin məlumatlar ümumiləşdirilirdi. Yəni eksperimental iş intensiv müşahidə və diaqnostika mərhələsində idi. Tədqiqatın əvvəlindən belə müşahidələrin nəticəsi əsasən xüsusi dinləmələr zamanı əldə edilirdi. Dinləmələr pianoçu-şagirdlərin ifaçılıq hazırlığının vacib xüsusiyyətlərini və meyarlarını əks etdirirdi – ifaçılığını, musiqi duyumunu, ümumi musiqi savadını, daxili mədəniyyətini. Əldə edilən göstəricilərə əsaslanaraq və onları ümumiləşdirib təhlil edərək belə nəticəyə gəldik ki, klassik Avropa mədəniyyətinə qovuşmaq və onu dərindən qavramaq üçün şagirdlərin yaddaşında zəngin intonasiya ehtiyatı, kifayət qədər inkişaf etmiş ritm hissiyyatı olmalıdır. Bununla əlaqədar rəqs musiqi folkloru nümunələri həm milli şüurun ifadəçisi və tərbiyəçisi, həm də rəqslərimizin yüksək estetik dəyərlərə malik olması şagirdlərin musiqi inkişafında əlverişli, təsirli vasitə sayıla bilər. Bu fikri uşaq musiqi məktəblərinin bir neçə qabaqcıl müəllimləri həvəslə qarşıladı və beləliklə bir qrup müəllim və şagird eksperimentə cəlb edildi.

Bakı şəhərində 5 uşaq musiqi və incəsənət məktəblərinin hər birindən 5 müəllim və 10 şagirdi eksperimental qrupa daxil etdik. Xüsusi dinləmələr və sorğular zamanı şagirdlərin ifaçılığını, musiqi duyumunu, ümumi musiqi savadını, daxili mədəniyyətini və digər meyarları müəyyənləşdirən aşağıdakı ilkin nəticələr əldə edildi.

Eksperiment zamanı əsas diqqət rəqs musiqi folkloru nümunələrinin mahiyyət dolğunluğunun, melodik xarakterinin düzgün mənimsənilməsinə yönəldildi. Bu istiqamətdə aparılan məşğələlərin bədii səviyyəsinin yüksəldilməsinə xüsusi diqqət yetirildi.

Cədvəl 2.1. Müəyyənedici mərhələnin nəticələri üzrə

| № | Məktəblər | Şagirdlərin sayı | Sorğu və dinləmənin nəticələri | | |
|---|---|---|---|---|---|
| | | | Yüksək səviyyə | Orta səviyyə | Aşağı səviyyə |
| 1 | Bakı şəhəri S.Ələsgərov adına 1 №li uşaq incəsənət məktəbi | 10 | 2 | 4 | 4 |
| 2 | Bakı şəhər Ə.Bakıxanov adına 6 №li uşaq musiqi məktəbi | 10 | 2 | 2 | 6 |
| 3 | Bakı şəhər H.Sarabski adına 7 №li uşaq musiqi məktəbi | 10 | 1 | 3 | 6 |
| 4 | Bakı şəhər R.Hacıyev adına 15 №li 11 illik musiqi məktəbi | 10 | 3 | 3 | 4 |
| 5 | Bakı şəhər G.Şaroyev adına 35 №li 11 illik musiqi məktəbi | 10 | 2 | 4 | 4 |

Müəyyən etdik ki, əksər hallarda şagirdlərin nəinki milli rəqslərimiz haqqında anlayışları yoxdur, həm də ümumi musiqi duyumunda biganəlik müşahidə olunur. Bu qənaətə gəldik ki, musiqiyə, ifaçılığa marağı artırmaq, ritm hissinin inkişaf etdirmək üçün milli rəqs melodiyalarına istinad etmək məqsədə uyğun olar.

Həmçinin keçirilən xüsusi dinləmələr aşkara çıxardı ki, təcrübəli müəllimlər ilə yanaşı uşaq musiqi və incəsənət məktəblərində bir çox gənc təcrübəsiz müəllimlər də işləyir. Şagirdlərinin ifasında olan catışmamazlıqlar müəllimlərin işinin qurulmasının birtərəfli, əhatəsiz, bir sözlə səriştəsiz olduğunu göstərir. Çox vaxt dinləmələrdə əsər əzbərdən ifa olunsa da, applikaturanın, pedalın, dinamik planın tamamilə düşünülməmiş olduğunu müşahidə edirdik. Musiqinin ifası xarakterinə uyğun olmadığı halda gənc ifaçının musiqiyə marağı haqda danışmaq çətindir. Belə hallar şagirdlərin musiqi inkişafının zəifliyini və butün göstəricilərin aşağı olduğunu sübut edir. Bu vəziyyətdən çıxış yolunu ustad dərslərin, elmi-metodiki seminarların, pedaqoji oxumaların təşkilində gördük.



2010-2012-ci illərdə keçirilən eksperimentin formalaşdırıcı mərhələsində tədqiqatın nəzərdə tutulan plan və məqsədlərini həyata keçirmək üçün məktəblərdə elmi-metodiki seminarlar keçirilmiş və bu problemlər üzrə səmərəli müzakirələr aparılmışdır.

Müəllim-eksperimentatorların şagirdlərilə bir neçə açıq dərslər təşkil olunmuşdur. Bu dərslərin məqsədi şagirdlərə milli rəqslərimizin, onların melodiyasının, ritminin, özünəməxsus xarakterinin qavranılması bacarıqlarının aşılanması və inkişaf etdirilməsindən ibarət idi.

Uşaq musiqi məktəblərinin fortepiano siniflərində tədrisin problem xarakterli həmin məsələləri üzrə keçirilən məşğələlər və onların şagirdlərin musiqi ifaçılıq qabiliyyətlərinin inkişafına göstərdiyi müsbət cəhətlər konkret nümunələr əsasında göstərilir.

**2.2 "Təcrübəvi eksperimentin korrelyasiya mərhələsi (2012-2014). "Solfecio" və "Musiqi ədəbiyyatı" fənlərinin tədrisi prosesində Azərbaycan xalq rəqsi melodiyalarının fortepiano üçün işləmələrindən istifadə imkanları"** adlı ikinci yarımfəsildə əldə olunan nəticələr konkret şəkildə nəzərə çatdırılır, həmçinin "Solfecio" və "Musiqi ədəbiyyatı" fənlərinin tədrisi prosesində Azərbaycan xalq rəqsi melodiyalarının fortepiano üçün işləmələrindən istifadə imkanları diqqət mərkəzinə gətirilir.

**Dissertasiyanın sonunda tədqiqatın nəticələri və irəli sürülən təkliflər aşağıdakı şəkildə nəzərə çatdırılır:**

1. Tədqiqat göstərdi ki, xalqımızın musiqi folklorunda mühüm yer tutan, milli və ümumbəşəri mahiyyətinə görə böyük əhəmiyyət kəsb edən rəqs melodiyaları müxtəlif nəsillərdən olan insanların, o cümlədən böyüməkdə olan nəslin bədii-estetik tərbiysində mühüm rol oynamaqla çox geniş tərbiyəvi təsir qüvvəsinə malikdir.

2. Faktik materiallar əsasında apardığımız təhlillər, araşdırmalar göstərir ki, Azərbaycan rəqs folkloru nümunələri, bütövlükdə rəqs sənəti klassik mahiyyəti ilə keçən əsrin 30-cu illərindən başlayaraq görkəmli bəstəkarlarımızın, xoreoqrafların diqqətini cəlb etmiş, onların bu sahəyə marağını daha da artırmış, dünya xalqlarının zövqünü oxşayan müxtəlif janrlı instrumental və balet əsərlərinin yaranması zəmini kimi dəyərləndirilmişdir.

3. Elmi ixtisas ədəbiyyatının, habelə tədqiqat prosesinin müxtəlif mərhələlərində apardığımız eksperimentlərin təhlili belə bir qənaətə gəlməyə əsas verir ki, mövzu, janr, quruluş, melodiya rəngarəngliyinə görə bir-birindən fərqlənən ayrı-ayrı xalq rəqs melodiyaları estetik-emosional təsir qüvvəsi ilə uşaq musiqi, incəsənət məktəbi şagirdlərinin musiqi qavrama qabiliyyətini inkişaf etdirir, estetik görüşlərini genişləndirir.

4. Tədris prosesində istinad edilən Azərbaycan xalq rəqsi melodiyaları rəngarəngliyi, ritm əlvanlığı ilə musiqi və incəsənət məktəbi şagirdlərinin daha çox marağına səbəb olmaqla onların ritm duyma həssaslığını inkişaf etdirir.

5. Azərbaycan xalq rəqsi melodiyalarının fortepiano üçün işləmələrinin metroritm, lad, tembr, hormoniya və quruluşla bağlı səciyyəvi xüsusiyyətlərinin düzgün başa düşülməsi, musiqi fənlərinin tədrisi prosesində onlara xüsusi diqqət yetirilməsi ayrı-ayrı məşğələlərdə şagirdlərin fəallığını daha da artırır.

6. Müxtəlif növ və janr əsasına malik olan xalq rəqsi melodiyalarının bəstəkarlarımız tərəfindən nota köçürülməsi, onlardan musiqi tədrisi prosesində müntəzəm, sistemlə istifadə olunması aşağı siniflərdən başlayaraq şagirdlərin musiqi ifaçılıq qabiliyyətlərinin inkişafına müsbət təsir göstərir, səmərəliliyə zəmin yaradan tədris vasitələri kimi dəyərləndirilir.

7. Tədqiqat prosesində belə bir fikrin doğruluğu da sübuta yetirildi ki, Azərbaycan xalq rəqsləri melodiyaları əsasında işlənən musiqi nümunələrinin tədris prosesinə gətirilməsi öz növbəsində uşaq musiqi, incəsənət məktəbi şagirdlərinin xalqımızın həyat tərzi haqqında təsəvvürlərini genişləndirir. Milli bayramlar və mərasimlərlə əlaqədar yaradılan, ifa olunan rəqs nümunələri, oyun tamaşaları ilə bağlı səsləndirilən müxtəlif xarakterli rəqs melodiyaları şagirdlərdə bu janrın bədii estetik mahiyyəti haqqında müstəqil fikir – mühakimə yürütmə qabiliyyətini inkişaf etdirir, daha da formalaşdırır.

Tədqiq etdiyimiz mövzu dairəsində bir sıra problem məsələlərinin real həllinə nail olmaq üçün aşağıdakı təkliflərin nəzərə alınmasını vacib sayırıq:



1. Hazırda respublikamızın uşaq musiqi və incəsənət məktəblərində təhsilin milli zəminə əsaslanmasına istiqamətlənən təkmilləşdirmə prosesində Azərbaycan xalq rəqsi melodiyalarının nota köçürülmüş, işlənilmiş nümunələrinin tədris prosesində lazımi yer tutmasına xüsusi fikir verilməlidir.

2. Uşaq musiqi və incəsənət məktəblərində ayrı-ayrı fənlərin, o cümlədən fortepiano və digər çalğı alətlərinin, habelə musiqi ədəbiyyatının, solfecionun tədrisi prosesində Azərbaycan xalq rəqs melodiyalarının nota köçürülmüş, işlənilmiş nümunələrinə müntəzəm, sistemlə istinad olunması fəal qavrama şəraitin yaranmasına əhəmiyyətli təsir göstərər.

3. Azərbaycan xalq rəqsi melodiyalarının bəstəkarlar tərəfindən işlənilmiş nümunələrin tədris proqramlarına və vəsaitlərinə daxil edilməsi, bu zaman sadədən mürəkkəbə prinsipinin əsas götürülməsi problemlə əlaqədar səmərəliliyin artmasına əlverişli şərait yaradar.

4. Uşaq-musiqi incəsənət məktəblərində təhsil alan şagirdlərin xalq yaradıcılığının bu sahəsinə marağını daha da artırmaq məqsədi ilə xalq rəqs melodiyalarının fortepiano üçün işlənilmiş nümunələrindən müvafiq hissələrin solfecio məşğələləri üçün müəyyənləşdirilməsi və xüsusi məcmuələr şəklində geniş tirajla çap edilərək tədris prosesinə tətbiq olunması şagirdlərin musiqi qavrama qabiliyyətinin inkişafına nəzərə çarpacaq dərəcədə əhəmiyyətli təsir göstərər.

5. Azərbaycan xalq rəqsi melodiyalarının fortepiano üçün işlənilmiş nümunələrinin çətinlik dərəcəsinə görə qruplaşdırılması, əyani-illustrativ formalarla xüsusi məcmuələrdə əks etdirilərək geniş şəkildə çap olunub uşaq musiqi, incəsənət məktəblərinə çatdırılması problem dairəsində uğurların artmasına zəmin yaradar.

6. Respublikamızın uşaq musiqi və incəsənət məktəblərində çalışan musiqi müəllimlərinin ixtisas biliyinin artırılması məqsədilə təşkil edilən ixtisasartırma kurslarında tədqiq etdiyimiz problem üzrə gəldiyimiz nəticələr, irəli sürdüyümüz təkliflərlə bağlı xüsusi seminar məşğələlərinin keçirilməsi faydalı olar, müəllimlərin nəzəri biliyini, praktik qabiliyyətlərini artırar.

**Dissertasiyanın əsas məzmunu, başlıca müddəaları aşağıdakı nəşrlərdə öz əksini tapmışdır.**


1. Некоторые аспекты современной музыкальном-профессионально подготовки студенов. Искусство глазами молодых. I международной (V Все Российской) научной конференции студентов, аспирантов и молодых ученных. Красноярск – 23-24 апреля 2009, стр. 427-429.
2. Azərbaycan xalq rəqslərinin fortepiano işləmələrində 2 hissəli vəznlə 3 hissəli vəznin növbələşməsi. "Müasir mədəniyyətşünaslıq" jurnalı 2010, № 3 (5), səh. 88-91.
3. Azərbaycan xalq rəqslərində melizmlər (melodik bəzəklər). «Müasir mədəniyyətşünaslıq» jurnalı № 4 (6), 2010, səh.59-62.
4. Azərbaycan xalq rəqslərinin inkişaf tarixinə nəzər. «Müasir mədəniyyətşünaslıq» jurnalı № 2 (14), 2013, səh.10-13.
5. Azərbaycan xalq rəqslərinin lad, tembr və harmonik xüsusiyyətləri. XVIII Beynəlxalq elmi-praktik konfrans. Türksoylu xalqların musiqi mədəniyyə-tinin tədqiqi problemləri. 2014, səh.124-126.
6. Использование Азербайджанских народных танцев в процессе обучение музыки. Мир науки, культуры, образование. 2014, № 2 (45), стр. 112-116.
7. Uşaq musiqi və incəsənət məktəblərinin məşğələlərində Azərbaycan xalq rəqslərinin fortepiano üçün işləmələrindən istifadə musiqi pedaqogikasının zəruri məsələlərindən biri kimi. «Mədəni həyat» jurnalı 2014, № 6 (280), səh. 80-82.
8. Uşaq musiqi təlimi sistemində Azərbaycan xalq rəqs melodiyalarının fortepiano üçün işləmələrinin praktiki mənimsənilməsi metodikası. «Musiqi dünyası» jurnalı 2014, № 3/60, səh. 60-62.




*Н.К.МУСТАФАЕВ*

**Система использования фортепианных обработок азербайджанских народных танцевальных мелодий в процессе обучения музыке**

## РЕЗЮМЕ


Диссертация состоит из вступления, двух глав, заключения и списка использованной литературы.

Во вступлении обоснована актуальность темы. Представлена информация об объекте, предмете, целях, задачах, методологических основах, методах, научной новизне, теоретической значимости исследования, а также о положениях, выдвинутых на защиту и о внедрении результатов.

Первая глава **«Использование азербайджанских народных танцев как педагогическая проблема»** состоит из четырёх разделов. В первом разделе в центре внимания находится ряд важных вопросов, связанных с историей развития азербайджанских народных танцев. Во втором параграфе анализируются характерные особенности фортепианных обработок азербайджанских народных танцевальных мелодий, в третьем параграфе даются сведения о отражении проблемы в нотных изданиях, программах и учебных пособиях. Четвёртый параграф первой главы посвящён путям практического освоения фортепианных обработок азербай-джанских народных танцевальных мелодий в системе музыкального образования.

Вторая глава называется **«Этапы организации и проведения эксперимента по использованию фортепианных обработок азербайджанских народных танцевальных мелодий в процессе музыкального образования»**. Здесь в центре внимания становятся основные этапы констатирующего и формирующего экспериментов, также корреляция результатов.

В заключении диссертации даны выводы по результатам исследования, а также предложения, направленные на реальное решение проблемы в процессе музыкального образования.

*N.K MUSTAFAYEV*

**The system of using piano adaptations of Azerbaijani folk dance melodies in the process of learning music**


## SUMMARY

Thesis consists of introduction, two chapters, conclusions and a list of references. In the introduction the author justified the urgency of a theme. It is provides the information about the object, subject, goals, objectives, methodological foundations, methods, scientific novelty, the theoretical significance of the study, as well as on the provisions put forward by the defence and implementation of results.

The first chapter **"The use of Azerbaijani folk dances as a pedagogical problem"** consists of four paragraphs. In the first section the focus is on a number of important issues related to the history of the development of Azerbaijani folk dances. The second section examines the characteristics of piano adaptations of Azerbaijani folk dance tunes, the third section provides information on the reflection problem in printed music publications, curricula and textbooks. The fourth paragraph of the first chapter is devoted to the ways of practical mastering piano adaptations of Azerbaijani folk dance melodies in the music education system.

The second chapter is called **"Phases of organizing and conducting the experiment to use piano adaptations of Azerbaijani folk dance melodies in the course of musical education"**. Here the focus becomes the main stages of ascertaining and formative experiments, also the correlation results.

In the conclusion of the thesis given the findings of the study, as well as proposals for a real solution to the problems in the process of musical education.


Üzeyir Hacıbəyli adına
Bakı Musiqi Akademiyasının
INV. № 690/2
KİTABXANASI



Çapa imzalanıb: 07.07.2015
Format: 60 x 84 1/16. Tiraj:100

**"Tərəqqi MMC"-nin mətbəəsində çap edilmişdir**
Bakı, Akademik Topçubaşov küç., 11